Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

13-cü cild

3 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 14

*Milli Məclisin iclas salonu.*
*3 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 114 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Toğrul Hüseynov**, Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Sarvan Cəfərov**, Azərbaycan Respublikası kənd təsər-

rüfatı nazirinin müavini.

**Kənan Kərimzadə**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Şahin Babayev**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Kamal Abbasov**, Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Mehman Baxışov**, Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini.

**Rəşad İsmayılov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini.

**Tapdıq Əmiraslanov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Sədaqət Qəhrəmanova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Namiq Hümmətov**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini.

**Elşad Əliyev**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Sahib Nağıyev**, Azərbaycan Respublikası Dini Qu-

rumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Azadə Hüseynova**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

**Əziz Şərifov**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**Xəyyam Məmmədov**, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin birinci müavini.

**Nigar Bayramova**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini.

**Əliyar Məmmədyarov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin müavini.

**Rövşən Cavadov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktorunun müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Sevinc Həsənova**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Niyazi Rəhimov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sosial məsələlər şöbəsinin müdiri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**Vüsal Qasımlı**, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat

Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində

dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının 2025-ci il dövlət**

**büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Qüdrət Həsənquliyev, Hicran Hüseynova, Jalə Əliyeva, Vüqar Bayramov, Aqil Abbasov, Vüqar Rəhimzadə, Hikmət Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16-cı və 17-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov, Tahir Rzayev, Azər Badamov, Vüqar Bayramov, Elman Nəsirov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

## 3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 107 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əhliman Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.35 dəq.)

| | |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**10. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*3 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli Şahin müəllim, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, media nümayəndələri. Hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.
Gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə bu gün 10 məsələ var və bu məsələlərin hamısı dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Bu qanun layihələri ikinci oxunuşdadır. İndi biz gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, 2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi həm komitələrdə, həm də Milli Məclisin plenar iclasında birinci oxunuşda geniş və ətraflı müzakirə edilmişdir. Plenar iclasdan sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müvafiq dövlət orqanları nümayəndələrinin iştirakı ilə büdcə zərfinin ikinci oxunuşda müzakirəsi keçirilib. Komitə üzvlərinin qaldırdığı məsələlərə, sual və təkliflərə aidiyyəti üzrə münasibət bildirilib, müvafiq şərhlər verilib və layihə ikinci oxunuş üçün plenar iclasa tövsiyə olunub.

Bir daha vurğulamaq istərdik ki, növbəti ilin büdcə layihəsi möhtərəm Prezidentimiz tərəfindən müəyyən edilmiş strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri əks etdirir və bunların hər birinin icrası üçün zəruri maliyyə təminatı yaradır. Aparılmış ilkin müzakirələrin nəticələri, Hesablama Palatasının rəyi

nəzərə alınmaqla Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsinin büdcə qanunvericiliyinin tələblərinə, ölkənin strateji sənədlərinin müddəalarına cavab verdiyi müəyyən edilmişdir. Büdcə zərfinin birinci oxunuşunda hörmətli millət vəkilləri çoxsaylı çıxışlar etmiş, təkliflər irəli sürmüş və layihəni konseptual olaraq dəstəkləmişlər.

Bu büdcə müzakirələri parlament formatına xas olmaqla təbii qiymətləndirilir. Lakin etiraf etmək lazımdır ki, bütün gözləntilərin növbəti il üçün təqdim olunan büdcə zərfi vasitəsi ilə reallaşdırılması qeyri-mümkündür. Nəzərə almalıyıq ki, büdcə prosesi, sadəcə, 1 illə məhdudlaşmır, davamlı və uzunmüddətli xarakter daşıyır və bu səbəbdən də hər zaman təkmilləşməyə məruz qalır. Bu illər ərzində belə bir təkmilləşmə üçün uzun bir yol qət edilib və bu yolda Prezident İlham Əliyevin tapşırıqları ilə hökumətin, o cümlədən Maliyyə Nazirliyinin gördüyü mühüm işlərlə yanaşı, parlament formatında büdcə müzakirələrinin, ali maliyyə auditi rəylərinin, Milli Məclislə hökumət arasında səmərəli əməkdaşlığın əhəmiyyətini və töhfələrini xüsusi olaraq qeyd etmək istərdim.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, büdcə layihəsini ikinci oxunuş üçün təqdim edərkən onun əsas xüsusiyyətlərini ümumiləşdirərək bir daha qeyd etmək istərdim ki, 2025-ci ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlılığı iqtisadi siyasətin həm prinsipləri, həm də əsas hədəfləri olaraq müəyyən edilir. Rifaha və iqtisadi artıma yönəldilmiş xərclər bir-birini tamamlayır və günün reallıqlarını nəzərə alır. Sosial xərclərin həcmi və strukturu vətəndaşların sosial müdafiəsinin və rifahının dövlətin diqqət

mərkəzində saxlanıldığını göstərir. İqtisadiyyatın şaxələndirilməsi üçün stimullaşdırıcı və təşviqedici tədbirlər nəzərdə tutulur. Böyük Qayıdış proqramının maliyyələşdirilməsi Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma və bərpa prosesinə, bu ərazilərdə iqtisadi həyatın canlanmasına və məskunlaşmaya öz layiqli töhfəsini verəcəkdir.

İqtisadi və maliyyə imkanlarımıza adekvat olaraq müdafiə və milli təhlükəsizliyimiz üçün büdcə vəsaitlərinin artırılması həm ölkəmizin təhlükəsizliyinə, həm də regionda sülh və sabitliyin qorunmasına xidmət edir. Büdcənin strateji istiqamətləri Azərbaycanın regionda iqtisadi, siyasi və hərbi lider mövqeyini daha da möhkəmləndirir. Bir sözlə, növbəti il üçün planlaşdırılan dövlət büdcəsi milli maraqlarımızın, iqtisadi müstəqilliyimizin, dövlət suverenliyimizin qorunmasına xidmət edən strateji maliyyə sənədidir.

Qeyd edilənləri nəzərə alaraq 2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsinin Milli Məclisin plenar iclasında ikinci oxunuş üçün müzakirəsini məqsədəuyğun hesab edir və hörmətli deputat həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bildiyiniz kimi, bu, ikinci oxunuşdur. Ona görə biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. İndi isə xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirələrə keçirik. Kim yazılmaq istəyirsə, buyursun, yazılsın. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli hökumət üzvləri, həmkarlar, Məclis iştirakçıları. Mən ilk öncə çıxışıma COP29-un yüksək səviyyədə təşkilinə və əldə olunan nəticələrə görə hökumət üzvlərinə, xidməti olan hər kəsə təşəkkür etməklə başlamaq istəyirəm.

Hörmətli Məclis iştirakçıları, büdcə zərfi ilə tanışlıq iqtisadiyyatda islahatların genişləndirilməsinə böyük ehtiyacın olduğunu göstərir. İslahatların uğurlu aparılmasını təmin edəcək güclü, xarizmatik Prezidentin, Birinci vitse-prezidentin, qəbul olunacaq qərarların uğurla həyata keçirilməsini təmin edəcək Baş nazirin olmasını nəzərə alaraq və islahatlara inanaraq iqtidar nümayəndələrinin fərqli fikrə hörmət və dözümlə yanaşacağı ümidi ilə bəzi məsələlərə münasibət bildirmək istəyirəm.

Hörmətli həmkarlar, hökumət üzvləri, hər il büdcənin gəlir və xərcləri artır, iqtisadiyyatımızın həcmi böyüyür. Bu, müsbət tendensiyadır. Amma ümumi daxili məhsulun real ifadədə 3,5 faizlik artımı heç birimizi qane etməməlidir. Çünki qarşımızda həllini gözləyən iri maliyyə tutumlu işlərə, o cümlədən əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönələn ciddi qərarların qəbuluna böyük ehtiyac var. “Milli təhlükəsizlik haqqında” Qanuna görə, milli təhlükəsizliyimizin təmin edilməsinin 6 əsas prinsipindən birincisi Azərbaycan Respublikasının Konstitusi-

yasına və qanunlarına riayət olunmasıdır. Müdafiə və təhlükəsizlik, hüquq mühafizə orqanlarının əməkdaşlarına, hakimlərə, dövlət qulluqçularına onların layiqli həyatlarını təmin edəcək qədər əməkhaqqı vermədən korrupsiyaya qarşı səmərəli mübarizəni təşkil etmək, qanunların aliliyini və mülkiyyət toxunulmazlığını təmin etmək və beləliklə də, əlverişli biznes mühiti yaratmaq qarşımızda çətin vəzifə olaraq qalacaq. İnkişafımızın qarşısında duran əsas problemlərdən biri olan bürokratik dövlət aparatı kiçildilməli, yəni optimallaşdırılmalı və onun hesabına digərlərinin əməkhaqqı artırılmalıdır.

Birinci oxunuşda bəzi həmkarlarım bəzi Qərbi Avropa ölkələri ilə bizi müqayisə etməyi təklif edirdilər. 2023-cü ildə iqtisadiyyatın əsas göstəricisi olan adambaşına ümumi daxili məhsulun həcmi 12 min 114 manat olmuşdur. Bu, Qərbi Avropa ölkələri ilə müqayisədə dəfələrlə azdır. İqtisadiyyata investisiya qoyuluşu keçən illə müqayisədə 3,9 faiz azalıb. “Milli təhlükəsizlik haqqında” Qanuna görə, iqtisadiyyata investisiya qoyuluşunun azalması iqtisadi təhlükəsizliyə əsas təhdid hesab olunur. 2016-cı ildə Prezident tərəfindən təsdiq edilmiş iqtisadiyyatın inkişafına dair strateji yol xəritəsinə uyğun olaraq, üzən məzənnəyə keçməli, böyük özəlləşdirməyə getməliyik. Hər il olduğu kimi, həmkarlarım hansı isə işlərin görülməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün büdcədən əlavə vəsait ayrılmasını təklif edirlər. Amma sual yaranır: haradan kəsib hara yönəldək? Bütün istiqamətlər üzrə xərcləri artırmağa ehtiyac var. Ona görə müzakirələr daha çox büdcə gəlirlərinin artırılmasına dair təkliflər verməkdən ibarət olmalıdır.

Diqqətinizi bəzi rəqəmlərə cəlb etmək istəyirəm.

Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər 612 milyon 230 min manat proqnozlaşdırılır. Onun 462 milyonunu Dövlət Neft Şirkəti, yerdə qalan 150 milyon 230 min manatını isə digər müəssisələr ödəyəcək. Halbuki onların sayı və dövlət müəssisələrinin birlikdə ödəyəcəkləri vergilərin həcmi barədə də məlumat yoxdur. Hesab edirəm, şəffaflıq təmin edilsə, bu istiqamətdə büdcəyə daha çox vəsait cəlb edə bilərik.

Təəssüf ki, büdcə sənədlərində neft-qaz və qeyri-neft-qaz sektorları, hüquqi və fiziki şəxslər üzrə vergilərə dair təsnifat aparılsa da, qeyri-neft-qaz sektoru üzrə büdcədən daxilolmaların neçə faizinin özəl, neçə faizinin dövlət müəssisələri tərəfindən ödəniləcəyi barədə məlumatlar aydın görünmür. Hesablama Palatasının rəyində də deyildiyi kimi, investisiya fəaliyyətini xarakterizə edən məlumatlar yetərli deyil. 2024-cü ilin birinci yarısında 45 min 409 yeni iş yeri açılıb. Bunun 95,1 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür.

Sonda bir neçə təklif vermək istəyirəm. Sahibə xanım, üzr istəyirəm, çıxış 10 dəqiqədir?

**Sədrlik edən.** Bəli.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Çıxışımı davam etdirirəm. İqtisadiyyatın əsas sahələri dövlətin nəzarətindən çıxarılmalıdır. Bu, həm də Konstitusiyanın tələbidir. Konstitusiyanın 59-cu maddəsinə görə, dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimlənməni həyata keçirir. Real həyatda isə dövlət iqtisadiyyata total nəzarəti həyata keçirir. Konstitusiyanın 15-ci maddəsinə uyğun olaraq, dövlət bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradıb azad sahibkarlığa təminat ver-

məsə, indikindən artıq nəticələr əldə etmək mümkün deyil. Yerli kommersiya banklarına vətəndaşların inamını bərpa etmək və sahibkarların ucuz kreditlərə çıxışını təmin etmək üçün Dövlət Neft Fondunun vəsaitlərinin bir hissəsi ölkəyə gətirilməlidir. Hökumət fiziki və hüquqi şəxslərdən öz pullarını geri qaytarmağı tələb edirsə, dövlət özü bunu niyə etməməlidir?

İqtisadiyyatımızın mövcud vəziyyətini belə xarakterizə edə bilərik: neft gəlirləri, xarici ticarət dövriyyəsi, qeyri-neft-qaz ixracatı, iqtisadiyyata investisiya qoyuluşu azalır, idxal və dövlət borcları, borclara görə büdcədən ödəmələr isə artır. Özəlləşdirmənin təşkili və mülkiyyət hüquqlarının qorunması üçün büdcədən 27,5 milyon manat vəsait ayrılsa da, neçə müəssisənin özəlləşdiriləcəyi və buradan büdcəyə nə qədər vəsait daxil olacağı aydın görünmür.

Sonda bir neçə təklif də vermək istəyirəm. Küçələrdə təmizlik işləri ilə məşğul olanlar 450 manat maaş alırlar. Onlar hər dəfə mənimlə görüşəndə bu məsələni hökumətin diqqətinə çatdırmağı xahiş edirlər. Vəziyyəti dəyişmək üçün bu sahənin təcili özəlləşdirilməsini təklif edirəm. Akademiyada elmlər doktoru 764 manat, fəlsəfə doktoru 647 manat, elmi işçi 445 manat, kiçik elmi işçi 415 manat maaş alır. Onların əməkhaqlarının artırılmasına ciddi ehtiyac var. Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəqəmlərə görə, keçən il kişilərin 47,5 faizi pensiya yaşına, yəni 65 yaşa çatmadan dünyasını dəyişib. Bu, hər birimizi narahat etməlidir, biz bu barədə ciddi düşünməliyik.

Güclü yağış yağanda su basan gecəqondular, eyni ilə zirzəmiləri kanalizasiya suları ilə dolmuş, həyətlərinin abadlaşdırılmasına ciddi ehtiyac duyulan 9 mərtəbəli binalar da tikinti şirkətlərinə verilməli, müasir kanalizasi-

ya sisteminin çəkilməsi onlara tapşırılmalıdır. Moskvada artıq bu istiqamətdə müəyyən addımlar atılır.

Xarici investorları cəlb etməklə neftayırma zavodu Bakının mərkəzindən köçürülməlidir. Ölkədə dövlət müəssisələrinin və xidmət sahələrinin özəlləşdirilməsinə gedilməlidir. Qarşıdakı illərdə neft gəlirlərinin azalacağını da nəzərə alaraq vaxt itirmədən Ümumdünya Ticarət Təşkilatına üzv olmalı, tam olaraq azad bazar iqtisadiyyatına keçməliyik.

Təkliflərimin öyrəniləcəyi və nəzərə alınacağı ümidi ilə görülən işlərə görə hökumətə təşəkkür edirəm. İslahatların həyata keçirilməsində uğur arzulayıram. Eyni zamanda, bir qeyd də edim. Axırıncı komitə iclasında hörmətli həmkarımız Elman Məmmədov mənə dedi ki, bu yaxınlarda Qarabağda olub, dağların yarılaraq necə gözəl yollar çəkildiyini, necə böyük bərpa-quruculuq işlərinin aparıldığını müşahidə edib, ürəyi dağa dönüb. Əlbəttə, hamımız buna çox sevinirik. Mən buna görə hökumətə bir daha öz təşəkkürümü bildirirəm. Hesab edirəm ki, 2025-ci il Azərbaycanda böyük islahatlar ili olacaq. Büdcə layihəsinə isə səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hicran Hüseynova. Hörmətli həmkarlar, biz 5 dəqiqəyə keçməmişik. Sizin tərəfinizdən təklif olmadı.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklifi səsə qoymaq lazımdır? Etiraz yoxdursa, çıxışlar 5 dəqiqədir. Hicran xanım, buyurun.

**Hicran Hüseynova**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət nümayəndələri, hörmətli media nümayəndələri. Dünyada gedən geosiyasi proseslər və ölkəmizə münasibətdə göstərilən ikili standartlar yeni risk və təhdidlər yaradır. Buna görə də Azər-

baycan öz hədəflərinə çatmaq üçün rəqabətə dayanıqlı iqtisadiyyatı təmin etməlidir. Bu baxımdan 2025-ci ilin dövlət büdcəsini həm də strateji bir sənəd kimi qəbul etmək olar. Hərbi potensialın gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, işğaldan azad olunmuş ərazilərimizin bərpa edilməsi prioritet məsələlərdir.

Öz doğma torpaqlarına qayıdan ailələrə və uşaqlara dair xüsusi proqramlar hazırlanır, onların psixoloji və sosial adaptasiyasına böyük kömək olunur. Yaxşı olardı ki, bu işlərə, bir çox maraqlı layihələrə sahibkar qadınlarımızı da cəlb etsinlər. Burada mən İqtisadiyyat Nazirliyinin və KOBİA təşkilatının sahibkar qadınlara olan dəstəyini xüsusi nəzərə almaq istərdim. Büdcədə ailə, qadın və uşaq məsələləri ilə bağlı xeyli artım var. Xüsusilə məişət zorakılığına, insan alverinə və erkən nikaha məruz qalan şəxslərə dəstək üçün ayrılan vəsaitin artırılması çox önəmlidir.

Hörmətli xanım sədr, minnətdaram ki, Sizin dəstəyinizlə Milli Məclisin komitələri ilə dövlət qurumlarının birgə iclasları keçirildi. Eyni zamanda, ətraflı təqdimata görə hökumət nümayəndələrinə, Hesablama Palatasına və Mərkəzi Banka təşəkkür edirəm. Təkliflərimin bir çoxunu komitələrin birgə iclasları zamanı səsləndirmişəm. Lakin bu gün bir hadisə oldu. Belə ki, Sumqayıtda yaşayış binasında və Abşeron rayonunun Novxanı kəndində fərdi yaşayış evində güclü partlayışın baş verməsi xəbəri bizi çox üzdü. Yaralılara tezliklə şəfa tapmalarını və sağlamlıqlarına qovuşmalarını diləyirəm. Ümid edirəm ki, bizim bütün aidiyyəti qurumlar bu gün orada işləyirlər və tezliklə hadisənin səbəblərini araşdıracaqlar, zərərçəkənlərə də lazımi kömək göstəriləcək.

Bu gün burada hökumət üzvlərinin iştirakını nəzərə alaraq seçildiyim 42 saylı Sumqayıt 1-ci seçki dairəsi üzrə bir neçə məsələni səsləndirmək istərdim. Xüsusilə cənab Prezident İlham Əliyevin tapşırığına əsasən 75 illiyini qeyd edən Sumqayıt şəhərində həyata keçirilən abadlıq və infrastruktur layihələri göz önündədir. Nəzərə alsaq ki, büdcədə çox böyük diqqət ekoloji problemlərə yönəlib, Sumqayıt şəhərində məişət tullantıları zavodunun tikintisinin büdcə layihəsinin investisiya proqramlarına salınması yaxşı olardı.

Texniki peşə məktəbləri ilə bağlı məsələyə toxunmaq istəyirəm. Sumqayıtda gənclərin peşə təhsili alması onların əmək bazarına inteqrasiyasını təmin etmək üçün çox böyük əhəmiyyət kəsb edir. Bu məktəblərin gələcəkdə sayının artırılması yaxşı olardı.

Vaxtı ilə Sumqayıtda bir neçə uşaq sanatoriyaları olub. Nəzərə alsaq ki, bu gün yüngül allergiya, sümük-oynaq sisteminin xəstəlikləri yetərincədir, gələcəkdə belə sanatoriyaların fəaliyyət göstərməsi də çox vacibdir.

Sonda yenə də təkrar demək istəyirəm ki, büdcə sənədi yüksək səviyyədə hazırlanıb və mən də ona səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hicran xanım, vaxtınız var. Əgər sözünüz varsa...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət və Milli Məclis üzvləri, media nümayəndələri. Bundan iki gün əvvəl, dekabrın 1-də Laçının düşmən tapdağından azad edilməsinin 4-cü ildönümünü qeyd etdik. Prezident İlham Əliyev 2023-cü il mayın 28-

də Laçına növbəti səfəri zamanı burada aparılan quruculuq işlərindən bəhs edərək demişdi: “Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün, bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun”. “Bəli, sözümüz imzamızdır” deyən Prezident İlham Əliyevin dəmir iradəsi ilə təkcə Laçın deyil, işğaldan azad etdiyimiz və üzərində üçrəngli bayrağımızı dalğalandırdığımız, suverenliyimizi elan etdiyimiz bütün torpaqlarımız, bütün Qarabağımız, elə Prezident İlham Əliyevin təbirincə desək, bu gün cənnətə çevrilir.

İşğaldan azad edildikdən sonra artıq 4 ildir ki, Qarabağda, Şərqi Zəngəzurda möhtəşəm bərpa-quruculuq fəaliyyəti həyata keçirilir, böyük tikinti-abadlıq işləri aparılır. 30 il işğal altında qalan, yerlə yeksan edilən torpaqlarımıza həyat Böyük Qayıdışla birlikdə yenidən qayıdır. Amma biz, sadəcə, Qarabağımızı qurub yaratmırıq. Biz ölkə boyu bütün sahələrdə durmadan inkişaf edirik. İstər münaqişə dövründə, istər müharibə zamanı, istərsə də postmüharibə mərhələsində ölkəmizdə həyata keçirilən bütün layihələrin bir ünvanı var: güclü Azərbaycan və xoşbəxt Azərbaycan insanı amili.

Ölkədə cənab Prezident İlham Əliyevin müəllifliyi və birbaşa rəhbərliyi ilə hazırlanan və gerçəkləşdirilən layihələr, xüsusilə sosial sahədə insanlarımızın rifah halının durmadan yaxşılaşdırılmasına yönəldilmiş layihələr, sosial islahatlar bu gün Azərbaycanı bölgənin və dünyanın

uğurlu bir nümunə kimi istinad edə biləcəyi inkişaf modelinə çevirməkdədir.

Mən 2025-ci ilin büdcəsi ilə bağlı müzakirə etməkdə olduğumuz hər bir qanun layihəsinə qiymət verərək demək istəyirəm ki, önümüzdəki il həyata keçiriləcək sosial paketlər, ümumiyyətlə, daha əvvəlki illərdə dövlətimiz tərəfindən başladılan və əzmlə davam etdirilən bütün islahatların, bu sahədə tətbiq edilən inqilabi dəyişikliklərin davamı kimi qiymətləndirilməlidir.

Vaxt darlığına görə statistik rəqəmləri səsləndirə bilməsək də, sosial paketin əhatə edəcəyi arealı sadalamağımız belə özlüyündə müsbət mənzərəni tam açıqlığı ilə göz önünə sərə bilər. Dövlət başçısı tərəfindən növbəti ildə həyata keçiriləcək böyük sosial islahatlar sayəsində gələn il həm minimum əməkhaqqının, həm minimum pensiyanın artırılması, eyni zamanda, sosial müavinətlər və təqaüdlər istiqamətində yeni konstruktiv addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə isə, bu sosial islahat paketi 3 milyon insanı əhatə edəcək ki, bu da əhalinin təqribən üçdə biri deməkdir.

İkinci oxunuşda müzakirə etməkdə olduğumuz hər bir qanun layihəsi – istər 2025-ci ilin dövlət büdcəsi layihəsi, istər Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi, istər İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi, istər Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsi, istərsə də Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsi Azərbaycan insanının rifahına, daha yaxşı yaşamasına və daha layiqli həyat şəraitinin təmin edilməsinə yönəldilmişdir. Həmin sosial

paketlərin qısa zamanda həyata keçirilməsi üçün müzakirə etdiyimiz qanun layihəsi münbit zəmin yaratmaqla bərabər, sosial sahənin inkişafına xidmət edəcək, nəticədə vətəndaşın rifah halının daha da yüksəlməsinə və məmnuniyyətinə səbəb olacaqdır.

Mən müzakirə etdiyimiz və edəcəyimiz qanun layihələrinin hər birinə ayrı-ayrılıqda səs verəcəyimi bildirir və deputat həmkarlarımı da qanun layihələrinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Şahin müəllim, hörmətli millət vəkilləri, hörmətli hökumət nümayəndələri. Mən də 2025-ci ilin büdcə layihəsinə səs verəcəyəm. Təbii ki, paketi dəstəkləyəcəyəm.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, bir neçə məqamı qeyd etmək istərdim. Əvvəla, 2025-ci ildə makroiqtisadi stabilliyin qorunub saxlanması həm də fiskal dayanıqlılıq baxımından vacibdir. Təqdim olunan sənəd göstərir ki, cənab Prezidentin rəhbərliyi ilə 2025-ci ildə Azərbaycan makroiqtisadi stabilliyi qoruyub saxlaya biləcək. Bu da həm maliyyə dayanıqlılığı, həm də dövlət büdcəsinin gəlirlərinin reallığı baxımından çox vacibdir.

Eyni zamanda, bir sıra xərc maddələri üzrə öz fikirlərimi təqdim etmək istəyirəm. Mən Milli Məclisdə işğaldan azad olunmuş ərazini təmsil etdiyim üçün məhz bir sıra məqamlara diqqət çəkmək istərdim. Əvvəla, 2025-ci ildə işğaldan azad olunmuş ərazilərimizə, Qarabağ və Şərqi Zəngəzurun qurulmasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizin bərpasına 18 milyard manat vəsait

ayrılıb. Bu o deməkdir ki, 2025-ci ilin proqnoz göstəricisi nəzərə alınmaqla məhz Vətən müharibəsindən ötən müddətdə Qarabağ və Şərqi Zəngəzurun qurulmasına 22 milyard manat vəsait xərclənəcək.

Çoxlarımız çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın həyata keçiriləcəyinə bəlkə də inanmırdıq. Amma çox az müddətdə cənab Prezidentin rəhbərliyi ilə artıq Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur və məskunlaşma davam edir. 2025-ci ildə işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşmanın daha intensiv şəkildə həyata keçirilməsi nəzərdə tutulur. 2026-cı ilin sonunadək Qarabağ və Şərqi Zəngəzurda 140 min vətəndaşımızın, keçmiş məcburi köçkünün məskunlaşacağı gözlənilir. Təbii ki, bütün bunlar məhz fiskal xərclər və fiskal dayanıqlılıq nəticəsində mümkün olur. Nəticə etibarı ilə 2025-ci ilin dövlət büdcəsi işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurulma prosesinin daha intensiv şəkildə davam etməsinə imkan yaradacaq.

Təbii ki, çox vacib xərc maddələrindən biri məhz müdafiə qabiliyyətimizin daha da gücləndirilməsi ilə bağlıdır. Bu, yalnız işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan vətəndaşlarımızın deyil, bütövlükdə, ölkəmizin təhlükəsizliyinin qorunması baxımından vacibdir. 2025-ci ildə bu istiqamətə 8 milyard 398 milyon manat vəsaitin ayrılması... 2024-cü ilin proqnoz göstəricisi ilə 20,3 faiz daha çox vəsaitin bu istiqamətə yönəldilməsinin nəzərdə tutulması ondan xəbər verir ki, 2025-ci ildə ölkəmizin müdafiə qabiliyyətinin daha da güclənməsi və təhlükəsizliyimizin daha da möhkəmləndirilməsi müşahidə olunacaq. 2025-ci ilin dövlət büdcəsi məhz bu istiqa-

mətdə maliyyə təminatının daha da gücləndirilməsinə imkan verəcək.

Digər vacib xərc maddələrindən biri sosial müdafiə və sosial təminat xərcləridir. Növbəti il bu istiqamətə yalnız bu maddə çərçivəsində 4,8 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu, əvvəlki illə müqayisədə 11,8 faiz çoxdur. Dövlət büdcəsinin sosial yönümlü xərcləri 16,9 milyard manat olacaq və büdcə xərclərinin 41 faizi sosial istiqamətə yönəldiləcək. Üç vacib prioritet xərc maddələri üzrə nəzərdə tutulan vəsaitlərin həm 2024-cü ilin proqnoz, həm də 2023-cü ilin real göstəricisi ilə müqayisədə artması ondan xəbər verir ki, bir tərəfdən, 2025-ci ilin dövlət büdcəsi cənab Prezident tərəfindən müəyyənləşdirilmiş yeni dövrün yeni hədəflərinə uyğundur. Digər tərəfdən, bu, milli prioritetlərə uyğun olaraq, prioritet istiqamətlərə daha çox vəsaitin ayrılmasını təmin edəcək.

Bütün bunların kontekstindən mən ikinci təklifimi təqdim etmək istərdim. Əvvəla, cari xərclərlə qeyri-resurs gəlirlər arasındakı proporsionallığın qorunması üçün daha məqsədəuyğun olardı ki, növbəti illərdə həm cari xərclərin optimallaşdırılması, həm də qeyri-resurs gəlirlərimizin şaxələndirilməsi ilə bağlı işlər daha da sürətlənsin. Eyni zamanda, büdcə defisitinin istehlak qiymətlərinin indeksi, eləcə də kapital bazarlarının təsirlərinin ayrıca qiymətləndirilməsi məqsədəuyğun olardı.

Bütövlükdə, sənədlə tanışlıq bir daha təsdiq edir ki, 2025-ci ilin dövlət büdcəsi milli prioritetlərə və cənab Prezident tərəfindən müəyyənləşdirilmiş prioritet istiqamətlərə uyğundur və növbəti il fiskal dayanıqlılığın davam etməsinə şərait yaradacaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbasov. Buyurun.

**Aqil Abbasov.** Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr və hörmətli həmkarlar. Mən məsələnin birinci oxunuşda müzakirəsinə toxunmaq istəyirəm. Diqqətlə qulaq asdım. 60-dan çox həmkarım çıxış etdi. Mən bir dəfə demişəm, yenə də deyirəm, bizim qarşımızda çıxış edən nazirlər nə Norveçin, nə də Almaniyanın nazirləridir. Ağır bir müharibədən çıxmış və hələ müharibə təhlükəsi də qurtarmamış bir ölkənin nazirləridir. Dövlət büdcəsini hazırlayarkən böyük əziyyət çəkiblər. Hesablayıblar ki, nə qədər pul var, bunu necə xərcləmək olar. Bizə qıraqdan pul gəlmir. Müharibədən sonra Qarabağa, Şərqi Zəngəzura Böyük Qayıdışın əsasları qoyulub, mühüm işlər görülüb. Hamı danışdı ki, kəndlərdə qaz, su, yol, məktəb yoxdur. Cari məsələyə çevirdilər, elə bil, cari məsələlər müzakirə olunur. Bir müddət məktəbsiz, susuz, yolsuz qala bilərik. Əsas odur ki, ağır müharibədən çıxmışıq. Neçəyə başa gəldiyini bilmərik, amma çox böyük qiymətə başa gəlib.

İndi də Qarabağda bərpa-quruculuq işləri gedir. Çox gözəl. Ağdam 60 min əhalisi olan şəhər idi. İndi isə cənab Prezident İlham Əliyev orada yüz min nəfərlik əhali üçün bir şəhər tikir. Mən Qarabağda tikilən şəhərlərə “İlham Əliyevin şəhərləri” deyirəm. Yüz min əhalisi olan şəhər neçəyə başa gələcək, Allah bilir. Ermənilər Qarabağa 800 milyard dollar, bəlkə bir az da artıq ziyan vurublar. Bunu da az müddətdə həll etmək mümkün deyil.

Mən büdcəyə səs verəcəyəm. Amma xahiş edirəm ki, növbəti büdcənin müzakirəsini cari məsələyə çevirməyəsiniz. Qaz da, su da olacaq. Mənim də kəndimdə, qonşu kənddə, qohum-əqrəbada qaz yoxdur. Soruşanda deyirəm

ki, qardaşlar, 30 ildir, qazsız yaşamısınız, Qarabağın, Ağdamın, Füzulinin, Kəlbəcərin xatirinə 3 il də qazsız yaşamağa dözün. Niyə dözmürsünüz? Mən də Ağdama qayıtmaq istəyirəm. Ev-eşiyimizə qayıdaq və orada adam balası kimi yaşayaq.

Ona görə də belə məsələlərə diqqət göstərilməsini xahiş edirəm. Mən bunu bir dəfə də, deyəsən, Elman Nəsirovun çıxışı ilə bağlı təkrar etmişəm. Çünki Elman Nəsirov keçən büdcə iclasında çıxış etdi, sonra təxminən 4-5 milyon pul istədi. Mən də zarafatca dedim, gərək pul ola ki, onu versinlər. Ona görə indi diqqətli olmalarını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aqil müəllim, çıxışınıza görə çox sağ olun. Siz düz deyirsiniz. Qarabağ torpağında böyük şəhərlər, kəndlər tikilir. Həmin torpaqlar da qarabağlılara verilir.

Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, millət vəkilləri, media nümayəndələri. Artıq birinci oxunuşda qəbul olunan 2025-ci ilin dövlət büdcəsinin müzakirələri ölkəmizin sosial-iqtisadi uğurlarının təqdimatında əhəmiyyətli rol oynayır. İqtisadiyyatımızın güzgüsü olan dövlət büdcəsinin sosial yönümlülüyü ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasətin əsas hədəflərinin reallaşmasını aydın ifadə edir. Təqdirəlayiq haldır ki, möhkəm təməl üzərində yeni hədəflərə doğru inamla addımlayan Azərbaycan iqtisadi islahatların dərinləşməsi, sosial layihələrin uğurlu icrası, bir sözlə, təkmil iqtisadi inkişaf modeli ilə dünyanın diqqətindədir.

Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya bütün dövrlərdə həyata keçirilib, həmin siyasət əsasında

dayanıb və bu gün də dayanmaqdadır.

Ölkədə həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq maliyyə qurumları ilə səmərəli əlaqələr quruldu, inkişaf üçün vacib olan neft strategiyası gerçəkləşdi, davamlı iqtisadi artımın əsası qoyuldu, əhalinin sosial rifahının yaxşılaşması istiqamətində ciddi addımlar atıldı. Bütün bunlar gələcək iqtisadi uğurların möhkəm təməlini formalaşdırmış oldu.

2003-cü ildə iqtisadi artımın qeyri-neft sektorunun hesabına olması çağırışını edən dövlət başçısı cənab İlham Əliyev bildirdi ki, sosial-iqtisadi göstəricilər yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır. Bu hədəf iqtisadi tərəqqinin güclü sosial siyasətlə tamamlanmasına yönəldi. Atılan uğurlu addımların nəticəsidir ki, bu gün Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edir. Vətəndaş məmnunluğunun artırılması, insanların yüksək rifah şəraitində yaşaması əsas prioritetlərdəndir.

İqtisadiyyatın güzgüsü büdcədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin çağırışlarında bu mühüm məqam xüsusi yer tutur ki, qarşıdakı dövrün dövlət büdcəsi başa çatmaqda olan ilin dövlət büdcəsindən həm kəmiyyət, həm də keyfiyyət baxımından zəngin olmalıdır. 2025-ci ilin dövlət büdcəsi layihəsində gəlirlərin 38 milyard, xərclərin 41 milyard manatdan artıq olması bunun təsdiqidir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, tarixi Zəfərimizdən və suverenliyimizin tam bərpa edilməsindən sonra yeni dövrə qədəm qoyan Azərbaycan yeni hədəfləri müəyyənləşdirərək onlara nail olmaq üçün uğurlu addımları ilə diqqətdədir. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyi, şəffaflığın

artırılması, müasir idarəçilik sisteminin yaradılması şəraitində azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, Böyük Qayıdış proqramının uğurla icrası və sair bu kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edir. Dövlətimizin başçısı yeni dövrün yeni hədəflərini açıqlayarkən bu mühüm çağırışı da səsləndirdi ki, bunlara nail olmaq üçün iqtisadiyyat inkişaf etdirilməlidir.

2025-ci ilin dövlət büdcəsində ayırmalar ölkəmizin iqtisadi və maliyyə imkanlarının göstəricisidir. Ölkəmizin hərtərəfli inkişafı əsasdır. Dövlət büdcəsindəki ayırmalarda hərbi xərclərin birinci yerdə dayanması hər bir ölkənin inkişafında müdafiə qabiliyyətinin gücləndirilməsinin əsas amil olduğunu göstərir. Baxmayaraq ki, tarixi Zəfərə, suverenliyimizin tam bərpasına nail olmuşuq, hərbi qüdrətimizin daha da möhkəmləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulur.

Digər mühüm hədəf isə azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri, soydaşlarımızın bu torpaqlara mərhələ-mərhələ qayıdışıdır. 2025-ci ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün xərclərin artırılması nəzərdə tutulub. Hesab edirəm ki, Böyük Qayıdış proqramının reallaşması bizim dövlətin və dövlət büdcəsinin qarşısında duran ən strateji hədəflərdən biri olmalıdır. Məndən əvvəl çıxış edən natiqlər də bunu qeyd etdilər. Həm ordu quruculuğuna, həm də dövlət büdcəsində Böyük Qayıdış proqramının yüksək səviyyədə reallaşmasına yönəlmiş maliyyə xərclərinin artırılması ən vacib hədəflər sırasındadır. Bu, birmənalı şəkildə belə də olmalıdır.

Ümumilikdə, gələn ilin dövlət büdcəsi layihəsi yenə də sosial yönümlülüyü ilə diqqətdədir. Büdcənin əsas

istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaq. Gələn ilin büdcəsində sosial yönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir.

Növbəti ildə minimum əməkhaqqının, minimum pensiyanın, sosial müavinətlərin və təqaüdlərin artırılması istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Hər bir sahənin...

**Sədrlik edən.** Mikrofon verin.

**Vüqar Rəhimzadə.** Hər bir sahənin inkişafı qarşıdakı ilin dövlət büdcəsi layihəsində nəzərdə tutulur. Bu baxımdan 2025-ci ilin dövlət büdcəsi layihəsi Azərbaycanın dayanıqlı inkişafının təqdimatıdır. 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan qanun layihələri müasir çağırışları özündə ehtiva edir.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi ilə yanaşı, gündəliyin növbəti iki məsələsi – Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında və İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihələri müzakirə edildi və birinci oxunuşda qəbul olundu. Ölkəmizin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayan qanunlarımız keçilən yolun təhlili əsasında qarşıya qoyulan yeni hədəflərin uğurla icrasını şərtləndirir. Əvvəl də qeyd etdiyim kimi, dayanıqlı inkişafı ilə dünyanın diqqətində olan Azərbaycan sosial-iqtisadi tərəqqinin yeni modelini təqdim edir. Qəbul olunan yeni qanunlar bu modelin təkmilləşdirilməsində öz sözünü deyəcək.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Heç Sizə mikrofon da lazım deyilmiş. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri. Doğrudan da, biz 2025-ci ildə, çox mürəkkəb bir tarixi mərhələdə çox strateji bir sənədi müzakirə edirik. Əslində, biz büdcəyə, sadəcə, rəqəmlərin statistikası kimi baxsaq, mənə elə gəlir ki, düzgün nəticəyə gəlmərik. Ona görə də büdcə sənədi haqqında danışan zaman müqayisəli, analitik bir təhlilə ehtiyac var. Məhz bu kontekstdən büdcəyə yanaşaraq mən onun iki mühüm komponentini, iki mühüm struktur vahidini müqayisə etdim. Bunlardan biri büdcənin gəlir hissəsi, digəri isə xərclər hissəsidir.

Əslində, büdcənin gəlir hissəsi Azərbaycan iqtisadiyyatının aynasıdır, göstəricisidir. Biz diqqət etsək, görəcəyik ki, büdcəmizin gəlir mənbələri nələrdir. 2 milyard manatdan çoxu fiziki şəxslərin gəlir vergiləridir. Bu o deməkdir ki, fiziki şəxslər aktiv iqtisadi fərdlərdir, onlar qazanc əldə edirlər və dövlətə vergi ödəyirlər. Bu, məsələnin bir tərəfidir. Yəni Azərbaycan iqtisadiyyatı haqqında bəzən nagüman danışan şəxslər bunu mütləq nəzərə almalıdırlar.

Büdcəmizin 6 milyard manatdan çoxu hüquqi şəxslərin gəlirlərindən ödənilən vergilərdir. Bu da çox ciddi bir rəqəmdir. Bu o deməkdir ki, hüquqi şəxslər hüquqi subyektlər kimi fəaliyyət göstərirlər, iş yerləri açırlar, qazanc əldə edirlər və ondan vergi ödəyirlər. Bu da iqtisadiyyatımızın başqa bir göstəricisidir.

Büdcəmizin 8 milyard manat mədaxili əlavə dəyər vergisindən ödənilən xərclərdir. Mən düşünürəm ki, bu da iqtisadi fəallığın çox bariz göstəricisi kimi qəbul edilməlidir. Əslində, bütün bunlar iqtisadi indikatorlardır.

Büdcəmizin 4 milyard manatı idxal vergisindən, yəni vətəndaşların, istehsal müəssisələrinin, sənaye müəssisə-

lərinin istehsal üçün və iqtisadi fəallıq üçün idxal etdiyi məhsullardan ödədiyi gəlirlərdir. Mənə elə gəlir ki, sadəcə, büdcənin gəlir mənbələri Azərbaycanın iqtisadi münasibətlər sistemi haqqında, onun keyfiyyəti haqqında çox aydın təsəvvür yaradır.

Büdcənin xərclər tərəfinə gəldikdə isə, yenə də düşünürəm ki, burada çox strateji prioritetlər var. Büdcəmizin 8,4 milyard manatı müdafiə xərclərinə ayrılır. Bu, çox vacibdir. Əgər ölkədə hərbi-siyasi təhlükəsizlik, sabitlik, xarici təhdidlərə qarşı müqavimət olmasa, hər hansı bir iqtisadi fəallıqdan, yaxud iqtisadiyyatın inkişafından danışmaq olmaz.

Sosial ödənişlərin hamısı sosial müdafiə xərclərinə bərabərdir, 16 milyarddır. Yəni bu o deməkdir ki, vətəndaşların aylıq əməkhaqlarından tutmuş digər sosial ehtiyaclarına qədər bütün xərclər buradan ödəniləcəkdir. Bu da mühüm bir məsələdir.

Böyük Qayıdışa 4 milyard manatdan çox vəsait nəzərdə tutulub. Mən düşünürəm ki, biz Böyük Qayıdışa, sadəcə, məcburi köçkünlərimizə ev tikib onları öz yurdlarına qaytarmaq kimi baxırıqsa, bu da doğru deyil. Böyük Qayıdışa artıq 18 milyard manat xərclənibdir, 4 milyard manat da xərclənəcək. Bunlar Azərbaycan iqtisadiyyatının gələcəyinə qoyulan yatırımlardır. Çünki bu pullarla yol infrastrukturu, enerji infrastrukturu yaradılır, iqtisadi fəaliyyət üçün şərtlər formalaşdırılır. Mənə elə gəlir ki, 2026-cı ildən sonrakı yeni mərhələ Azərbaycan iqtisadiyyatının çox sürətlə böyüməsi mərhələsi olacaq. Çünki 20 faiz resurslarımız, o cümlədən məcburi köçkünlərimizin öz torpaqlarına geri dönməsi əmək qüvvəsinin o torpaqlara qayıtması deməkdir. Mən düşünürəm ki, bu da

iqtisadi münasibətlərimizdə tamamilə yeni bir keyfiyyət mərhələsi yaradacaqdır. Ona görə də ayrıca investisiya xərclərinin 7 milyard manatdan çox olması, ümumiyyətlə, bu rəqəmlərin ümumi təhlili, mənə belə gəlir ki, büdcəmiz, iqtisadiyyatımızın keyfiyyəti, iqtisadi münasibətlərimizin həm bu günü, həm də gələcəyi haqqında aydın təsəvvür yaradır. Aydın olur ki, Azərbaycanda dinamik iqtisadiyyat formalaşıbdır. İqtisadi münasibətlərimiz arzuolunan səviyyədədir. Bu iqtisadi münasibətlər həm də gələcək iqtisadi münasibətlərimizin və büdcəmizin gələcək təminatçısı qismində çıxış edir. Ona görə də mən bu sənədə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz səsvermə proseduruna keçirik. Bilirsiniz ki, ikinci oxunuşda qanun layihəsini öncə maddələr üzrə, sonra isə bütövlükdə səsə qoyuruq. Bu layihədə 17 maddə var. Mən onları üç-üç səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi növbəti üç maddəni səsə qoyuram. Bu, 4-cü, 5-ci və 6-cı maddələrdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| --- | ---: |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul olundu.

7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| --- | ---: |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul olundu.

İndi isə növbəti 10-cu, 11-ci və 12-ci maddələri səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| --- | ---: |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü, 14-cü və 15-ci maddələr səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Nəhayət, 16-cı və 17-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Büdcə zərfinə daxil olan digər layihələrdir. Qeyd edim ki, gündəliyin 2-ci məsələsi Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında, 3-cü məsələsi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihələridir. Mən keçən dəfə də təklif etmişdim, indi də təklif edirəm ki, Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa müəllim hər iki layihə haqqında ümumi məlumat versin. Müzakirəni birgə aparaq, səsverməni, həmişə olduğu kimi, ayrılıqda keçirəcəyik. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Birinci oxunuş zamanı Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun 2025-ci il büdcələri haqqında qanun layihələri geniş təqdim olunmuş və ətraflı müzakirə edilmişdir. Həmin büdcə layihələrinin parametrlərinə yenidən qayıdaraq vaxt almaq istəmirəm. Sadəcə, söyləmək istəyirəm ki, Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərcləri cari ildəkindən 10,5 faiz, İşsizlikdən sığorta fondunun gəlirləri və xərcləri isə cari ildəkindən 9,5 faiz çoxdur. Bu da gələn il üçün proqnozlaşdırılan inflyasiya göstəricisindən iki dəfə artıqdır. Bu rəqəmlər o deməkdir ki,  gələn il bu kateqoriyadan olan vətəndaşlarımızın sosial təminatı daha da yaxşılaşacaqdır.

Müzakirələr zamanı birinci oxunuşda 23 deputat həmkarımız çıxış etmişdir. Çıxış edən həmkarlarımızın hamısı büdcə layihələrini dəstəklədiklərini bildirmişlər. Çıxış edən və səs verərək büdcə layihələrini dəstəkləyən bütün deputat həmkarlarımıza komitəmizin adından minnətdarlığımı bildirirəm.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, bəzi çıxışlarda büdcə layihələrinə aid olmayan ümumi sosial təminat və sosial müdafiə ilə bağlı problemlər söylənilmiş və bəzi tənqidi fikirlər olmuşdur. Bu fikirlərlə bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ətraflı çıxış etdi, məlumat, arayış verdi. Ona görə də o məsələlərə qayıtmıram. Bildirmək istəyirəm ki, deputat həmkarlarımızla sosial müdafiə, sosial təminatla bağlı komitədə işçi qaydada müzakirələr aparmağa hazırıq. Hörmətli xanım sədr, Sizin tövsiyənizlə biz bu praktikadan əvvəllər də istifadə etmişik. Komitə dinləmələrimiz də açıqdır. Sosial problemlərlə maraqlanan, bu sahədə fikirləri, təklifləri olan deputatlarımızla komitəmizdə həmişə müzakirə aparmağa şad olarıq.

Son olaraq bildirmək istəyirəm ki, layihə hökumətin müvafiq təmsilçiləri və Hesablama Palatasının nümayəndəsinin iştirakı ilə komitədə ətraflı müzakirə edilmişdir. Komitədə tövsiyə olunmuşdur ki, layihə parlamentdə ikinci oxunuşda müzakirəyə çıxarılsın. Yekun olaraq demək istəyirəm ki, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun büdcələri, eləcə də dövlət büdcəsinin sosial yönümlü xərcləri vətəndaşlarımızın sosial rifahının gələn il də qorunmasına, işsizliyin səviyyəsinin aşağı vəziyyətdə saxlanılmasına, daha geniş məşğulluq imkanlarının yaradılmasına, aztəminatlı

insanlarımızın, sosial müdafiəyə və qayğıya daha çox ehtiyacı olan şəhid ailələrimizin, qazilərimizin, veteranlarımızın sosial rifahının ətraflı şəkildə təmin olunmasına imkan verəcək. Büdcəmiz buna etibarlı təminat yaradacaqdır. Deputat həmkarlarımdan büdcə layihələrinə ikinci oxunuşda səs vermələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, sağ olun. Hörmətli həmkarlar, qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli deputat həmkarlar, hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Plenar iclas üçün ikinci oxunuşa tövsiyə olunmuşdur. Deputat həmkarlardan hər iki layihənin dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, yenə də biz bu qanun layihələrini əvvəlcə əsas kimi qəbul etməliyik. Xatırladım, ikinci oxunuşdur. Ona görə Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinə əsas kimi münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə  müzakirəyə keçirik. Tahir Rzayev. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, hökumət üzvləri. Azərbaycanın iqtisadi inkişafını, müstəqil siyasi xəttini, beynəlxalq aləmdə artan nüfuzunu, xalqın birliyini gözü götürməyənlər – Qərb, Avropa, Fransa, eləcə də xaricdə və daxildə olan bəd-xahlar ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli təd-birlərə daim kölgə salmağa çalışır, uğurlarımızı kiçiltməyə cəhd göstərirlər. Vacib əhəmiyyətli idman oyunlarında, musiqi yarışmalarında, konfranslarda bunun şahidi olmu-şuq. COP29 ərəfəsində, keçirildiyi günlərdə, elə bu günün özündə də bunu görürük. Hökumətin hesabatı, dövlət büdcəsinin müzakirəsi zamanı da bu cür şantaj, böhtan xarakterli məlumatlar,  bəyanatlar səsləndirilir.

Azərbaycanı iqtisadi cəhətdən zəif, sosial qayğılardan uzaq, insan hüquqlarını pozan bir dövlət kimi qələmə

verən Amerika, Fransa kimi dövlətlər, əli kərimlilər, isa qəmbərlər, arif hacılılar və onların havadarları bilməlidirlər ki, əgər ölkəmizdə müəyyən problemlər yaşanırsa, bunda onların günahı daha böyükdür. Çünki Qarabağ torpaqları onların vasitəçiliyi ilə düşmənə satılıb, təhvil verilib, yüz minlərcə insan el-obasından didərgin salınıb. Amerika, Fransa insan hüquqlarından gen-bol danışdıqları halda, 30 il bu münaqişəni həll etmək istəmədilər, Azərbaycanın haqq səsini eşitmədilər, əslində, təcavüzkar Ermənistanın tərəfində oldular, qatillərə yardım etdilər və bu gün də öz köməklərini əsirgəmirlər.

Əgər Qarabağ torpaqları Xalq Cəbhəsi hakimiyyəti dövründə düşmənə təhvil verilməsəydi, Minsk qrupunun üzv dövlətləri münaqişənin haqlı həll yolunu vaxtında tapsaydılar, müəyyən problemlər tez bir zamanda aradan qaldırılardı. Azərbaycan dövləti 30 il bir milyon qaçqın və köçkünün qayğısına qalıb, onların sosial müdafiəsini təmin edib, qaçqın şəhərcikləri salıb, evlər tikib. Bu məsələlər – ordu quruculuğu, milli təhlükəsizliyimiz, regionların sosial-iqtisadi inkişafı, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, müharibəyə hazırlıq daim diqqət mərkəzində olmuşdur.

Müharibədən sonra işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 22 milyard manat vəsait ayrılmışdır. Əgər müharibə olmasaydı, torpaqlarımız işğal altında qalmasaydı və dövlət işğalın aradan qaldırılmasına, ordu quruculuğuna, qaçqın və köçkünlərin sosial qayğılarına uzun illər ərzində on milyardlarla vəsait sərf etməsəydi, bu gün regionlarda bir dənə də təmirsiz məktəb, uşaq bağçası, xəstəxana qalmazdı, əhalinin güzəranı daha yaxşı olardı, heç bir çətinlik yaşanmazdı. İşğal altına düşən torpaqlar

əkilib-becərilər, ölkəyə məhsul verər, insanlara gəlir gətirərdi. Torpaqlarımızı, viran qalan şəhər və kəndlərimizi bərpa etmək külli miqdarda vəsait tələb edir və Azərbaycan dövləti bu vəsaiti inkişaf edən iqtisadiyyatımızın, insanların birliyi və vətənpərvərliyi sayəsində əldə etmişdir. Büdcədə göstərilən rəqəmlər, ayrılan xərclər bunu sübut edir. Bu həqiqətləri dövlətimizə düşmən kəsilənlər yaxşı bilsələr də, sözsüz, özlərini bilməməzliyə vururlar, əhalinin sosial vəziyyəti, büdcəmizin durumu barədə yalan məlumatlar sərgiləyirlər. Ancaq xalqımız reallığı yaxşı bilir, insanlar ölkə rəhbəri ilə həmrəy olduqlarını, düşmənə, bədxahlara nifrətlərini qələbələrimizlə nümayiş etdirirlər.

Azərbaycan Prezidenti cənab İlham Əliyev sosial məsələlərin yüksək səviyyədə həllinə nail olmaq üçün siyasi iradə nümayiş etdirir və bildirir ki, Azərbaycanda sosial sahədə vəziyyət dünyanın aparıcı dövlətlərindən geri qalmamalıdır. Bu vəzifələr 2025-ci ilin dövlət büdcəsində, Dövlət Sosial Müdafiə Fondunun büdcəsində aydın əksini tapmışdır. Həyata keçirilən tədbirlər nəticəsində minimum pensiyalar 2,5 dəfə, orta aylıq pensiyalar 2,4 dəfə, yaşa görə orta aylıq pensiyalar 2,3 dəfə, müavinətlərin və təqaüdlərin minimum məbləği 5 dəfə, ünvanlı dövlət sosial yardımı üzrə orta məbləğ 2,7 dəfə artmışdır.

Şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlər orta hesabla 2 dəfə artıb. Onlar 14 min 600 mənzillə təmin olunub, qazilərə 7 min 700 avtomobil verilmişdir. Büdcə xərclərinin 41 faizinin sosial yönümlü olması, dövlət rəhbərinin ali məqsədlərinin həyata keçirilməsi insanlara qayğının ifadəsidir.

Bizə təqdim olunmuş sənədlərdə xərclər reallıqlar

əsasında, mövcud vəziyyət nəzərə alınaraq bölünüb. Əlavə vəsait sosial müdafiəyə artımla ünvanlanıb və vacib məsələlər nəzərə alınmışdır. Mən Dövlət Sosial Müdafiə Fondunun büdcə layihəsini...

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri və həmkarlar. Biz bu gün Dövlət Sosial Müdafiə Fondunun büdcəsini ikinci oxunuşda müzakirə edirik. Təqdim olunmuş qanun layihəsi yalnız iqtisadi siyasətimizin deyil, həm də sosial rifahımızın, xalqımızın gələcəkdəki həyat səviyyəsinin qurulmasında mühüm bir addım olaraq önəm daşıyır. 2025-ci ilin büdcəsində sosial müdafiə sahəsinə ayrılan vəsaitlərdəki artım dövlətimizin sosial siyasətinin gücləndirilməsi və əhalinin müxtəlif sosial qruplarına dəstəyin artırılması məqsədini daşıyır. Xüsusilə pensiyalar, əlillik təqaüdləri, işsizlik sığortası, sağlamlıq xidmətləri və sosial xidmətlər sahələrindəki layihələrin artırılması hökumətimizin sosial bərabərliyi təmin etməsindəki iradəsini göstərir.

Qanun layihəsində əhalinin aztəminatlı təbəqəsinin, əlilliyi olan şəxslərin və pensiyaçıların həyat şəraitinin yaxşılaşdırılması prioritet olaraq qalır. Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilən sosial yardımlar və proqramlar bu qruplara daha geniş imkanlar yaratmaq məqsədi daşıyır.

Hörmətli həmkarlar, qanun layihəsi ikinci oxunuşda müzakirə olunduğuna görə maddələr üzrə münasibətim müsbətdir. Qeyd etmək istəyirəm ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2025-ci ildə ölkəmizdə sosial siyasətin uğurla davam etdirilməsinə imkan verəcəkdir. Həm də qeyd etmək istəyirəm ki, ölkəmiz müstəqillik

illərimizin əvvəlində erməni işğalı ilə qarşılaşmasaydı, bu gün Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin daha böyük rəqəmlərlə ifadə olunduğunu görərdik. Belə ki, torpaqlarımız işğal altında olduğu illərdə dövlət büdcəsinin vəsaitlərinin böyük hissəsi məcburi köçkün və qaçqınların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdi. Çadır şəhərciklərinin ləğv olunması və keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədi ilə yeni qəsəbələrin və şəhərciklərin tikilməsinə, onların sosial müdafiəsinin gücləndirilməsinə, sosial dəstək proqramlarına, şəhid ailələri və Qarabağ müharibəsinin iştirakçılarına dəstək proqramlarına, ordunun gücləndirilməsinə yüz milyardlarla manat vəsait sərf olunmuşdur. O cümlədən torpaqların işğaldan azad olunduğu 4 ildə 2025-ci il də daxil olmaqla 23 milyard manata yaxın vəsait sərf olunaraq 100 yaşayış məntəqəsinin yenidən qurulması və bərpası proqramı icra olunur. Ermənistanın yerlə yeksan etdiyi 300-dən çox yaşayış məntəqəsini yenidən quraraq keçmiş məcburi köçkünləri öz doğma yurdlarına qaytarmalıyıq.

Təbii ki, bu layihələrin icrasına əlavə olaraq on milyardlarla manat vəsait sərf olunacaqdır. Əgər ölkəmiz belə problemlərlə qarşılaşmasa idi, bu gün Dövlət Sosial Müdafiə Fondunun büdcəsi daha böyük rəqəmlərlə ifadə olunardı və vətəndaşlarımızın sosial təminatı daha da çox yüksələrdi. Halbuki bu problemləri bizə yaşadan 1990-cı illərin əvvəlində hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin bacarıqsızlığıdır. Xalqımız onun yükünü bu gün də daşımağa məcbur olur. Təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi altında meydana gəlmiş iqtisadi güc tarixin bizə miras qoyduğu çətinlikləri aradan qaldır-

mağımıza, suverenliyimizi təmin etməyimizə və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yol açır.

Hörmətli həmkarlar, qeyd etmək istəyirəm ki, çətin tarixi bir yol keçməyimizə baxmayaraq, dövlətimiz sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımız üçün layiqli həyat şəraiti təmin edir. Hər il sosial proqramların əhatə dairəsi genişlənir. Belə ki, 2025-ci ildə icrası nəzərdə tutulan sosial paket də 3 milyondan çox insanı əhatə etməklə vətəndaşlarımızın sosial müdafiəsinin güclənməsinə xidmət edəcəkdir. Bu, Prezident İlham Əliyevin siyasətinin təməlində Azərbaycan vətəndaşının sosial rifahının dayandığının göstəricisidir.

Sonda müzakirəmizə təqdim olunmuş Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsinin və digər qanun layihələrinin ikinci oxunuşun tələblərinə cavab verdiyini hesab edirəm və dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri və hörmətli qonaqlar. Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, layihə üzrə bir neçə məqamı təqdim etmək istərdim. Sosial mediada xüsusən pensiya təminatı və Dövlət Sosial Müdafiə Fondunun dayanıqlılığı ilə bağlı qərəzli və heç də doğru olmayan bəzi məlumatlar təqdim olunur. Ona görə bir neçə məqamı qeyd etmək istərdim. Təbii ki, mövcud vəziyyət və son illərdəki dəyişiklik məhz həmin yanaşmaların qərəzli və populist olduğunu bir daha təsdiq edir. Dövlət Sosial Müdafiə Fondu vasitəsi ilə son illərdə əmək pensiyalarının ödənilməsi üçün nəzərdə tutulan vəsaitin məbləğinə diqqət yetirsək, görərik ki, 2021-ci ildə əmək

pensiyalarının ödənilməsi üçün 4 milyard 880 milyon manat vəsait nəzərdə tutulmuşdur. 2022-ci ildə bu rəqəm 4 milyard 951 milyon manat oldu. 2023-cü ildə 6 milyard 77 milyon manat vəsait pensiyaların ödənilməsi üçün yönəldildi. 2024-cü ildə 6 milyard 525 milyon manat vəsaitin bu istiqamətə yönəldilməsi nəzərdə tutulub. Növbəti rəqəm 7 milyard 408 milyon manat olacaq. Son 5 ilin, eyni zamanda, 2025-ci ilin proqnoz göstəricisinə görə, əmək pensiyalarının ödənilməsi üçün nəzərdə tutulan vəsait hər il əvvəlki ilə nisbətən dinamik artıb. Eyni zamanda, 2021-ci illə müqayisədə 2025-ci ildə əmək pensiyalarının ödənilməsi üçün illik olaraq 2 milyard 528 milyon manat daha çox vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da pensiya sisteminin dayanıqlılığını və sosial təminat siyasətinin genişləndiyini bir daha təsdiq edir. O baxımdan son illərin əmək pensiyaları üçün nəzərdə tutulan vəsaitdəki dinamik artım və illər üzrə artımın həyata keçirilməsi bir daha təsdiq edir ki, pensiya sistemi üçün maliyyə təminatının genişləndirilməsi həyata keçirilib. Xüsusən Vətən müharibəsindən sonra vəsaitlərin Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidən qurulmasına, bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizin bərpasına yönəldilməsi həyata keçirilib. Öncə də qeyd etdiyimiz kimi, artıq 18 milyard manat bu istiqamətə yönəldilib. Amma bütün bunlara rəğmən, pensiya ayırmalarında nəinki azalmalar, nəinki eyni vəsaitin saxlanılması, ötən müddətdə pensiya məbləğlərinin illik olaraq artması müşahidə olunub.

Daha çox müzakirə edilən məqamlardan biri. Çox təəssüf ki, buna da qərəzli yanaşma var. Bu, əmək pensiyalarının artırılması ilə bağlıdır. 2025-ci ildə bütün növ

əmək pensiyaları artırılacaq və bu, Dövlət Sosial Müdafiə Fondunun büdcəsində öz əksini tapıb. Söhbət 2025-ci ildə 1 milyon 100 min vətəndaşımızın pensiyasının indeksləşdirilərək artırılmasından gedir. İndeksləşdirmə faizi hər hansı bir qurum tərəfindən müəyyənləşdirilən faiz deyil. Bu, əvvəlki ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq, həyata keçirilən indeksləşdirmədir. 2024-cü ildə əmək pensiyalarının ödənilməsi üçün nəzərdə tutulan vəsaitin həcmi 6 milyard 525 milyon manatdır. Əslində, söhbət kifayət qədər böyük məbləğdə vəsait üzərindən indeksləşdirmədən gedəcək. Təbii ki, bu, nəticə etibarı ilə növbəti il əmək pensiyası alan bütün vətəndaşlarımızın pensiya məbləğlərinin indeksləşdirilərək artırılmasına imkan verəcək. Birmənalı şəkildə 2024-cü ildə nominal orta aylıq əməkhaqqındakı artım faizi məhz növbəti il pensiya artımları üçün baza yaratmaqla, eyni zamanda, əmək pensiyası alan vətəndaşlarımızın, bütövlükdə, sosial təminatının daha da gücləndirilməsinə imkan yaradacaq.

Digər məqam Dövlət Sosial Müdafiə Fondunun büdcəsi ilə əlaqədar sosial ekosistemin strukturunun dəyişməsi ilə bağlıdır. Çünki DSMF-in gəlirlərinin əhəmiyyətli hissəsi qeyri-dövlət yığımları üzərində qurulur və 2024-cü ildə, geridə qalan 10 ayda Azərbaycanda ilk dəfə olaraq özəl sektorda bağlanan əmək müqavilələrinin sayı dövlət sektorundan daha çox olub. 1 milyon 768 min əmək müqaviləsi, yəni muzdlu işçi var, onların 880 mini dövlət sektorunda, 888 mini isə qeyri-dövlət, yəni özəl sektorda fəaliyyət göstərir. Bu, əslində, Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin dayanıqlılığı baxımından vacibdir. Bu, həm də strateji olaraq ondan xəbər verir ki, Dövlət Sosial Müdafiə Fondu növbəti illərdə əmək pensiya-

larındakı artım tempini dinamik olaraq qoruyub saxlaya biləcək və indeksləşdirmə daxil olmaqla digər istiqamətlərdə pensiyaçılarımızın sosial təminatı davam etdiriləcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun, Elman müəllim.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Mən də büdcəmizin müzakirəsi zamanı büdcəmizlə bağlı bəzi əleyhdarlarımızın həqiqəti təhrif edən, ona kölgə salan yanaşmaları ilə ara-sıra tanış oluram. İndidən iddia edirlər ki, "bu büdcə sosial yönümlü deyil, bu büdcə ilə insanların qarşısında dayanan, həllini gözləyən o sosial problemləri həll etmək mümkün olmayacaq". Belə əsassız yanaşmalar ortaya qoyurlar. Keçən iclasda hörmətli əmək və əhalinin sosial müdafiəsi naziri çox geniş faktlarla, arqumentlərlə bu məsələyə izahat verdi. Amma mən bəzi məqamları səsləndirmək istəyirəm. Hər şey müqayisədə ortaya çıxır. Müqayisə olunanda real mənzərə hasil olur. Xərcləri 41,4 milyard manata çatan büdcəmizin sosial yönümlü olmasına kimin şübhəsi varsa, vərəqləsin, baxsın. Bu büdcənin az qala yarısı sosial yönümlüdür. Bu illə müqayisədə məhz sosial istiqamətdə 1 milyard 400 milyon manat olan büdcə xərclərimiz daha da artıq olacaq. Həmin insanlara üzümü tutub söyləyirəm ki, vicdanınız olsun, bizim 21 il bundan öncəki, yəni 2003-cü il büdcə gəlirlərimizə baxın. O zaman bizim 1 milyard 220 milyon manat büdcə gəlirlərimiz var idi. Amma indi 38,3 milyard manatdır. Yəni bunu görmək üçün daha nə lazımdır? Kor olmusunuz? Həqiqəti eşitmək istəmirsiniz?

Büdcə xərclərimizə baxın. Düz 21 il bundan öncə –

2003-cü ildə Azərbaycanın büdcə xərcləri 1 milyard 234 milyon manat təşkil edirdi. Bu gün isə 41,4 milyard manatdır. Fərqə baxın, fərqi hiss edin. Düz 21 il bundan öncə ölkəmizin ümumi daxili məhsulu cəmi 7,1 milyard manat idi. Bu gün isə təxminən 123 milyard manatdır. Bu da təxminən 78 milyard dollardır. Müqayisə üçün həmin bədxahlarımıza deyirəm ki, tərifədiyiniz Ermənistanda bu gün ümumi daxili məhsul heç 25 milyard dollara gəlib çatmır. Bizdə 78 milyard, onlarda 25 milyard dollardan aşağıdır. Bizim uğurlarımızdan yasa batan qüvvələrə söyləyirəm ki, baxın, ölkəmizin hərbi büdcəsi 8,4 milyard manata çatıb. İndi Ermənistan canfəşanlıq edir, Fransadan, Hindistandan, Yunanıstandan silahlar alır və büdcəsini 1,7 milyard dollara çatdırıb. Bizim büdcəmiz isə 7,1 milyard manat idi. Bu da təxminən 4,2 milyard dollardır. İndi əlavə vəsait də artırılaraq 8,4 milyard manata çatıb. Fərqə baxın, görün ki, indi biz daha güclüyük.

Sosial məsələlər ilə bağlı keçən dəfə söyləmişdim, yenə də deyirəm, bizim sosial xərclərimiz təxminən 17 milyard manatdır. Yenə də müqayisə etmək istəyirəm. Bu sosial xərclər kontekstində 21 il bundan öncəyə baxın. 2003-cü ildə Azərbaycanda minimum əməkhaqqı cəmi 9 manat təşkil edirdi. Keçən müddət ərzində 345 manat olub ki, bu da 38 dəfə artımdır. Mən 38 faiz demirəm, 38 dəfə artım qeydə alınıb.

Gəlin, pensiya məsələlərinə baxaq. Düz 21 il bundan öncə ölkəmizdə minimum pensiyanın miqdarı cəmi 20 manat idi, indi isə 280 manatdır. Bu, 14 dəfə artım deməkdir. Orta aylıq pensiyanın həcminə gəldikdə isə yenə 21 il bundan qabaq cəmi 24 manat idi. İndi 436 manata çatıb.

Ünvanlı sosial yardım 37 manat idi, 485 manata çatıb.

Düz 13 dəfə artım qeydə alınıb. Yəni bunlar hamısı ölkə Prezidenti cənab İlham Əliyevin yeritdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşının, onun sosial rifahının dayandığını göstərir. 2025-ci ildə xalqımızın rifahı daha da yaxşı olacaq, çünki büdcədə daha yüksək rəqəmlər öz əksini tapıb. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur, səsverməyə keçirik. Xatırladım ki, qanun layihələrini əvvəl maddə-maddə, sonra isə bütövlükdə səsə qoyacağıq. Beləliklə, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsində 7 maddə var. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam. Xahiş edirəm, indi birinci 3 maddəyə səs verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinin səsverməsinə keçirik. Bu qanun layihəsində 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Gündəliyimizin 4-cü məsələsi Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə mən sözü komitənin sədri Azər müəllimə verirəm. Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, təqdim edilmiş qanun layihəsinə hər hansı əlavə və dəyişiklik edilmədiyini nəzərə alaraq qanun layihəsinin olduğu kimi

səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Musa müəllim, Sizdən xahiş edirəm, qanun layihəsi haqqında komitənin rəyini bildirin.

**Musa Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Mən səsə qoyuram. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi müzakirəyə keçirik. Çıxış etmək istəyən yoxdur. Ona görə də mən maddələr üzrə səsverməyə keçirəm. Layihədə 2 maddə var. 1-ci maddəni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm, buyurun, məlumat verin.

**Musa Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri. Ehtiyac meyarının 2025-ci il üçün həddi 285 manat müəyyən edilir. Bu, cari ildəkindən 15 manat çoxdur. Onu da deyim ki, son 3 ildə ehtiyac meyarı artıq yaşayış minimumuna bərabərləşmişdir. Layihənin mətnində heç bir dəyişiklik yoxdur, olduğu kimi səsə qoymağı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Azər müəllim, xahiş edirəm, qanun layihəsi barədə komitənin rəyini bildirin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, komitəmizin qərarı müsbətdir, layihəni dəstəkləyirik.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini əsas kimi qəbul etməliyik. Mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılanlar var. Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Hörmətli sədr, hörmətli hökumət nümayəndələri, deputat həmkarlarım, media nümayəndələri. Ehtiyac meyarı haqqında qanun layihəsi daha çox

nəticəlilik göstərən layihələrdən biridir. Belə ki, ehtiyac meyarı haqqında qanun layihəsi zaman-zaman müzakirə olunanda biz alternativ layihələr irəli sürmüşük. Çox anlayışla qarşılanıb. Hörmətli sədr, növbəti ildə heç nəyə dəymədən, olduğu kimi, ya da müəyyən bir dəyişikliklə qəbul edilib. Bu, hesab edirəm, çox vacib bir nüansdır. Bunu qeyd edirəm. Bunun nəticəsində ehtiyac meyarı yaxşı bir dinamika götürüb. Məsələn, 2020-ci illə müqayisədə 2024-cü ildə ehtiyac meyarının göstəricisi 1,7 dəfə qalxıb. Artıq 3-cü ildir ki, ehtiyac meyarı ilə yaşayış minimumunun göstəriciləri bir-biri ilə eyniləşdirilib. Bunu da çox müsbət hesab edirəm.

Bayaq dediyim fikrə qayıtmaqla növbəti illər üçün vacib hesab etdiyim bir sıra məqamları qeyd etmək istəyirəm. Belə ki, 2025-ci ilin ehtiyac meyarı 15 manat və ya 5,5 faiz artıb. İndiki reallıqları, ordu quruculuğunu, təhlükəsizliyi və sair məlum prioritetləri nəzərə almaqla bu rəqəm başadüşüləndir. Eyni zamanda, qeyd etmək istəyərdim ki, indi də alternativ bir rəqəm irəli sürmək olar. Amma həmin 15 manat, 25 manat, yaxud da 30 manat səsləndirilsə və paralel olaraq antiinflyasion tədbirlər görülməsə, bunun 15, yaxud 30 manat olmasının elə bir əhəmiyyəti yoxdur. O nöqteyi-nəzərdən hesab edirəm ki, bu 15 manatın öz təyinatına yönəlməsi üçün antiinflyasion tədbirləri həyata keçirməyə ehtiyac var.

Eyni zamanda, növbəti illərdə bəzi məqamları nəzərə almağı vacib hesab edirəm. Belə ki, əgər bizim ehtiyac meyarı 5,5 faiz artıbsa və gələn il 4,6 faiz inflyasiya özünü göstərirsə, deməli, bu, bir-birini tamamlayan göstəricidir. Amma həmin 4,6 faizlik inflyasiya 528 məhsul əsasında hesablanmış inflyasiya olduğuna görə 350-500 manat

maaş alan insanlar üçün bu, önəmli ola bilməz. Həmin aşağı maaşlı insanların gəlirlərinin 70 faizindən çoxu gündəlik tələbat məhsullarına gedir. Bu ilin avqust ayına qədər gündəlik tələbat məhsullarının bir hissəsinin qiyməti 10 faizdən 27 faizə qədər artıb. Növbəti aylarda bu artım əlavə 30 faiz olub. Hörmətli sədr, bir rəqəmi demək kifayətdir ki, ilin əvvəlində yağın qiyməti Azərbaycana 10 manata gəlirdisə, ortalama 21 manatdan baha satılır. Hələ mən 30 manatdan yuxarı satılan yağları demirəm. Deməli, həmin artım olan 10 manatın 2-3 manatı təbii, 7-8 manatı isə süni qiymət artımıdır. Ona görə əvvəldə dediyim fikrə bir də qayıtmaq istəyirəm ki, rəqəmlərin necə olmasından daha çox antiinflyasion tədbirləri həyata keçirməklə minimumların əhaliyə yönəldilməsini daha çox dolğun həll etmək məsələsi indiki dövrdə prioritet təşkil edir.

İkinci məsələ. Əgər ehtiyac meyarı ilə yaşayış minimumu bir-birinə yaxınlaşıbsa, onda bunlardan birinin götürülməsi, yəni yaşayış minimumunun əsas götürülməsi çox vacibdir. Bilirsiniz ki, biz Azərbaycanda yaşayış minimumu və ünvanlı sosial yardım haqqında iki qanun layihəsi işləyib hazırlamışıq. Həmin qanun layihələri, hesab edirəm ki, indiki dövrün əsas məqamları ilə səsləşir. Eyni zamanda, hesab edək ki, biz sürətlə dəyişən bir dünyada yaşayırıq. Belə bir zamanda xüsusən sosial göstəricilərdə irəli getmək lazımdır. Ona görə də belə bir təklif irəli sürmək istəyirəm ki, bu qanun layihələrinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Milli Məclisin müzakirələri zamanı çox deyilən əməkdaşlığı nöqteyi-nəzərindən yenidən işlənib növbəti illərdə, məqbul bir vaxtda hansısa ilin büdcə zərfinə qoyulması ümumi işin xeyrinə olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Layihədə 2 maddə var. 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Vergi Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsi komitədə həm birinci oxunuş, həm də ikinci oxunuş üçün geniş müzakirə edilmişdir. Dövlət Vergi Xidməti tərəfindən geniş təqdimatlar edilmişdir. Komitə çərçivəsində bir daha müəyyən etdik ki, Vergi Məcəlləsində dəyişikliklərlə bağlı layihədə nə vətəndaşlar üçün, nə də sahibkarlar üçün hər hansı ağırlaşdırıcı şərtlər nəzərdə tutulmayıb. Əksinə, güzəştlərin miqyası və dairəsi genişlənib, o cümlədən bu, humanitar bloka, mədəniyyət sahəsinə də şamil edilir.

Eyni zamanda, hörmətli xanım sədr, plenar iclasda da Vergi Məcəlləsində dəyişikliklərlə bağlı birinci oxunuş üçün geniş təqdimat edildi. Bu gün Vergi Məcəlləsində hər hansı əlavə və dəyişikliklərin olmadığını nəzərə alaraq həmin layihənin olduğu kimi səsə qoyulmasını Sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Əsas kimi səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsində 3 maddə var. Bir-bir səsə qoyacağam. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

2-ci maddəni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, bu qanun layihəsində də hər hansı əlavə və dəyişiklik edilməyib. Bu sənədin də olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin. Mən əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirə üçün yazılanlar yoxdur. Səsverməyə keçirik.

Hörmətli həmkarlar, bu qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

Mən qanun layihəsini indi bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizdən xahiş edirəm, qanun layihəsi haqqında məlumat verin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, büdcə zərfinə daxil olan bu qanun layihəsi ilə də bağlı deputat həmkarlarımız tərəfindən hər hansı qeyd, təklif olmamışdır. Layihədə dəyişikliklər edilməmişdir. Bunu nəzərə alaraq bu sənədin də olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirə üçün yazılanlar yoxdur. Səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Ona görə də mən hörmətli Musa müəllimdən xahiş edəcəyəm. Musa müəllim, məlumat verin. Buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Dəyişiklik Vergi Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır. Birinci oxunuşdan sonra komitəyə heç bir təklif daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. Xahiş edirəm, olduğu kimi səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Səhiyyə komitəsində də baxılmışdır. Ona görə mən hörmətli Əhliman müəllimdən xahiş edəcəyəm. Əhliman müəllim, komitənin rəyini bildirin. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, Səhiyyə komitəsi də qanun layihəsini dəstəkləyir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Layihədə 5 maddə var. Mən onların üçünü bir, ikisini bir səsə qoyacağam. 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 4-cü və 5-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim 10-cu məsələmiz "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, bu qanun layihəsi Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştlərinin gömrük güzəştləri ilə tamamlanmasını, başqa sözlə, dəstəklənməsini nəzərdə tutur. Deputat həmkarlarımızın bu layihə ilə bağlı əlavə qeyd və təklifləri olmamışdır. Bu layihənin də olduğu kimi səsə qoyulmasını Sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. İkinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Hörmətli həmkarlar, əsas kimi səsə qoyuram. Münasibət bildirməyinizi də sizdən xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya minnətdarlığımı bildirirəm. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

<u>***3 dekabr 2024-cü il***</u>

**Elnarə Akimova.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini tam dəstəkləyirəm. Hesab edirəm ki, 2025-ci ilin dövlət büdcəsi kifayət qədər balanslı, elmi təhlilə əsaslanan bir büdcədir. Belə bir büdcənin hazırlanmasında əməyi olan bütün hökumət üzvlərinə, xüsusilə Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Hesablama Palatasının əməkdaşlarına minnətdarlığımı bildirirəm. Müzakirə etdiyimiz 2025-ci ilin dövlət büdcəsi işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması da daxil olmaqla, ölkəmizin bütün sahələri, o cümlədən sosial təminat, səhiyyə, elm, təhsil, mədəniyyət, müdafiə və təhlükəsizlik, dayanıqlı iqtisadi inkişaf dövlət proqramları və layihələrin həyata keçirilməs təmin edilməsi nəzərə alınmaqla tərtib edilmişdir. Bu səbəbdən sosial yönümlü dövlət büdcəsi layihəsini məqbul hesab edirəm.

Bütün bu yaradılmış imkanın fonunda ərazimlə bağlı məni narahat edən bir neçə məsələ üzərində dayanmaq istəyirəm. Qeyd edim ki, bu günlərdə 75 yaşını qeyd edən Sumqayıtda yaradılan gözəlliklər, aparılan quruculuq işləri, göz oxşayan müasir infrastruktur hamıya məlumdur. Dövlət başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin Sumqayıta qayğısı nəticəsində burada çox böyük layihələr reallaşdırılıb, şəhər rəhbərliyi Sumqayıtın inkişafı ilə bağlı

önəmli işlərə imza atıbdır. Son illərdə hasilə gətirilən Heydər Əliyev Mərkəzi, Muğam Mərkəzi, Bayraq Muzeyi, Uşaq İncəsənət Məktəbi, Şahmatçılar Məktəbi, “Kimyaçı” Mədəniyyət Sarayının təmiri, Sumqayıt Dram Teatrının yeni, modern üslubda tikilişi ürəkaçan mənzərədir və şəhərimizə olan dövlət qayğısının bariz nümunəsidir. Eləcə də Sumqayıtın 75 illik tarixində gerçəkləşən ən böyük tarixi hadisə Sumqayıt bulvarının yaradılmasıdır ki, möhtərəm Prezidentimiz onu möcüzə adlandırıb. Bu bulvar Sumqayıtı nəinki Azərbaycanın, bütün Qafqazın müasir texnologiyalarla nəfəs alan şəhərlərindən birinə, iri sənaye mərkəzinə çevirib.

Bəzi məsələlər də var ki, onların həlli istiqamətində işlər görmək şəhərimizlə birlikdə mədəniyyətimizin də gələcək inkişafına böyük xidmət olardı. Məsələ bundadır ki, şəhərdə bəzi kitabxanaların vəziyyəti acınacaqlıdır, döşəmələri artıq yararsız hala düşüb. Eləcə də musiqi məktəblərinin təmirə ehtiyacı var. Əsas problemlərdən biri budur ki, Cəfər Cabbarlı adına Mədəniyyət Evi artıq qəzalı vəziyyətdədir. Halbuki bu mədəniyyət evi tarixi abidə olaraq qorunmalıdır. Qeyd edim ki, Hacı Zeynalabdin qəsəbəsində də eyni hal yaşanır. 40 min əhalisi olan qəsəbədə bir dənə də mədəniyyət ocağı yoxdur. Təsəvvür edin ki, bu yaxınlarda Hacı Zeynalabdin qəsəbəsində Sumqayıtın 75 illiyi ilə bağlı tədbir hansısa məktəbin zalında keçirildi. Mədəniyyət evləri, kitabxanalar yalnız gənclərimizin asudə vaxtlarının səmərəli təşkili, yaxud mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün gərəkli olan məkan deyil, həmçinin maarifçi bir nəslin yetişməsi üçün vacib amillərdən biridir. Çox xahiş edirəm ki, bu məsələlərə diqqət yetirilsin, təmirə ehtiyacı olan məkanlar

nəzarətə götürülsün. Ehtiyac olan ərazilərdə mədəniyyət evləri açılsın. Çünki mədəniyyət evlərinin, kitabxanaların mövcudluğu həm tarixi günlərimizin qeyd olunması, həm də digər ədəbi-mədəni tədbirlərin vahid məkanda təşkili baxımından mühüm rol oynayardı.

**Səbinə Salmanova.** Əvvəlcə bildirim ki, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi mükəmməl hazırlanıb və sənədin lehinə səs verəcəyəm. Peşəkarlıqla hazırlanmış bu maliyyə sənədi növbəti ildə ölkə iqtisadiyyatının inkişafına və sosial müdafiənin təmin edilməsinə, eyni zamanda, ölkənin müdafiə qüdrətini daha da artırmağa və möhkəmləndirməyə imkan verəcək.

Təmsil olunduğum Sumqayıt şəhəri ilə bağlı bir neçə təklif irəli sürmək istəyirəm. Bu günlərdə Sumqayıt şəhərinin 75 illiyi böyük təntənə ilə qeyd olunmuşdur. Mən bu münasibətlə bütün sumqayıtlıları bir daha təbrik edirəm. Azərbaycanımızın hər bir guşəsi kimi Sumqayıt da sürətlə inkişaf edir. Cənab Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində aparılan yenidənqurma və abadlıq işləri şəhərin görkəmini xeyli dəyişib, şəhər dünyanın ən gözəl yerlərindən birinə çevrilib.

Bütün bunlarla yanaşı, şəhərimizdə bəzi məsələlərlə bağlı problemlər də vardır. Onlardan biri də məişət tullantılarının zərərsizləşdirilməsi və daşınması ilə bağlıdır. Bildiyiniz kimi, hazırda Sumqayıtda 500 mindən artıq insan yaşayır. Şəhər əhalisinin artımı məişət tullantılarının həcminin artmasına səbəb olur. Həmin məişət tullantıları isə məişət tullantıları poliqonuna daşınaraq orada yandırılır. Atmosferə atılan tullantılar, ətrafa buraxılan tüstü və kəskin qoxu isə insanların haqlı narazılığına səbəb olur. Bu vacib problemin aradan qaldırılması üçün kon-

kret, praktik addımlar atılmalı və tullantıların utilizasiyası zavodu tikilməlidir. Xahiş edirəm ki, şəhərin ən böyük problemlərindən birinin öz həllini tapmasına dəstək göstərəsiniz.

Diqqətinizə çatdıracağım digər məsələ Azərbaycanın mühüm sənaye mərkəzlərindən biri olan Sumqayıtda əmək bazarının tələblərinə cavab verən peşə məktəblərinin çatışmazlığı ilə bağlıdır. Hazırda şəhərdə iki peşə təhsili müəssisəsi var. Sumqayıtda 220-dən artıq sənaye müəssisəsi fəaliyyət göstərir. Onun da 30-dan artığı müxtəlif təyinatlı zavodlardır. Ancaq bu müəssisələrdə kadr ehtiyatı ilə bağlı müəyyən boşluqlar mövcuddur. Onlar, əsasən, sənaye, texnologiya və xidmət sahələri ilə bağlıdır.

Hesab edirəm ki, Sumqayıtda yeni peşə məktəblərinin açılması yerli işsizlik problemlərinin həllinə kömək edəcək, Sumqayıtın sənaye və texnoloji inkişafına müsbət təsir göstərəcək. Bu, həmçinin regionun uzunmüddətli iqtisadi inkişafına töhfə verəcək.

Sumqayıt şəhəri ilə bağlı daha bir vacib məsələni diqqətinizə çatdırmaq istəyirəm. Bundan öncəki təklifimdə qeyd etdiyim zavod və müəssisələrin tullantıları Sumqayıtçaya, oradan isə Xəzər dənizinə axıdılır. Həmin kimyəvi maddələr suyun və qruntun tərkibini dəyişdirir. Bu da öz növbəsində Xəzər dənizinin flora və faunasına öldürücü təsir göstərir, eyni zamanda, sakinlərin dənizdən istifadə etməsində müəyyən problemlər yaradır. Hesab edirəm ki, həmin çirkab suların təmizlənərək dənizə axıdılması üçün xüsusi qurğular quraşdırılmalıdır.

**Sevil Mikayılova.** Cənubi Qafqaz hazırda mürəkkəb bir mərhələdən keçir. Gürcüstanda baş verən son hadisələr, xüsusilə də Tbilisidə beş gündür, davam edən

etirazlar və iğtişaşlar regionun ümumi təhlükəsizlik və sabitlik perspektivlərini ciddi şəkildə təhdid edir. Bu proseslər yalnız bir ölkənin daxili məsələsi kimi qiymətləndirilməməlidir.

Biz qonşu və qardaş Gürcüstanda baş verən mövcud vəziyyəti böyük diqqət və narahatlıqla izləyirik. Ölkəmiz üçün Gürcüstanın sabitliyi və rifahı xüsusi əhəmiyyət kəsb edir, çünki bu ölkə yalnız yaxın qonşumuz deyil, həm də bizi tarixi, mədəni və iqtisadi bağların birləşdirdiyi strateji tərəfdaşımızdır.

Gürcüstandakı vəziyyət həm regional, həm də beynəlxalq geosiyasi mənzərəni formalaşdıran bir neçə əsas faktora təsir edir. Əvvəlcə vurğulamaq lazımdır ki, Gürcüstanın geosiyasi mövqeyi onun Cənubi Qafqazdakı əsas rolunu müəyyənləşdirir. Bu ölkə həm enerji, həm nəqliyyat dəhlizləri üçün əsas qovşaqdır, həm də Qərb ilə Şərq arasında strateji əlaqə nöqtəsidir. Azərbaycanın Gürcüstanla əməkdaşlığı, xüsusən də Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr regionun iqtisadi sabitliyində həlledici rol oynayır. Gürcüstandakı hər hansı qeyri-sabitlik bu infrastrukturun təhlükəsizliyinə və davamlılığına ciddi təhdid yaradır.

Tbilisidəki hazırkı böhran xarakterсə Ukraynada 2013–2014-cü illərdə baş vermiş Maydan hadisələrini xatırladır. Bu etirazlar daha geniş mənada xarici güclərin Gürcüstanın daxili proseslərinə müdaxiləsini və burada "rəngli inqilab" ssenarilərini həyata keçirmək cəhdlərini göstərir. Qərb strukturları, xüsusilə də beynəlxalq donor təşkilatları və qeyri-hökumət qurumları gərginlik artırmaqda, cəmiyyətdə parçalanma yaratmaqda və hökumətə təzyiq göstərməkdə fəal iştirak edirlər. Bu, yalnız Gürcüstanın daxili

sabitliyinə deyil, həm də bütün Cənubi Qafqazın geosiyasi balansına mənfi təsir göstərir.

Gürcüstandakı böhran təkcə yerli hökumət üçün deyil, həm də region ölkələri üçün təhlükə mənbəyidir. Azərbaycanın strateji maraqları baxımından Gürcüstanın sabitliyi əhəmiyyət kəsb edir. Gürcüstandakı gərginlik həm də Ermənistanla Azərbaycan arasındakı həssas tarazlığı pozmaq riski daşıyır. Regionun sabitliyi üçün kritik olan Cənubi Qafqazın gələcəyi bu üç ölkə arasındakı münasibətlərin dinamikasına sıx bağlıdır.

Hazırkı vəziyyətdə Gürcüstanın daxili siyasi qərarlarının yalnız ölkədaxili deyil, həm də beynəlxalq səviyyədə təsirləri nəzərə alınmalıdır. Qərbin müdaxiləsi bu ölkənin suverenliyinə təhlükə yaratmaqla yanaşı, regionda güc balansını dəyişdirə bilər. Qlobal miqyasda Cənubi Qafqazın sabitliyi yalnız regional deyil, həm də Avropa və Asiyanın enerji təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir.

Azərbaycan Gürcüstanı son zamanlar bürüyən böhranın ən qısa zamanda həll olunmasında maraqlıdır. Biz gürcü xalqının sabitliyin bərpasına olan ümidlərini bölüşürük. Bundan əlavə, bizi Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə, həmçinin xalqının rifah və sabitliyə olan arzularına dərin hörmət birləşdirir. Əminik ki, yalnız dialoq, kompromis və bütün tərəflərin məsuliyyətli yanaşması ilə Gürcüstan vətəndaşlarının maraqlarına uyğun həll yolları tapıla bilər. Gürcüstanda sabitliyin və milli birliyin gücləndirilməsinə yönəlmiş bütün təşəbbüslər təqdir olunmalıdır. Ümid edirik ki, böhran ən qısa zamanda aradan qaldırılacaq və Gürcüstan dinc, sabit və demokratik dövlət olaraq öz rifah yolunda irəliləməyə davam edəcək.

* * *

2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi mütərəqqi şəkildə hazırlanıb. Dövlət büdcəsinin həm gəlir, həm də xərclər hissəsində qeydə alınan rekord artımlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında müəyyənləşmiş inkişaf hədəflərinə çatmaq üçün möhkəm zəmin formalaşdırır.

Qlobal siyasi və iqtisadi müstəvidə baş verən proseslər milli iqtisadiyyatlara, təbii ki, təsirsiz ötüşmür. Mövcud vəziyyətdə Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə bərqərar olan iqtisadi sabitliyi və dayanıqlı inkişafı qorumaq çox vacibdir. Bu baxımdan 2025-ci ilin dövlət büdcəsi ölkəmizin bu vəzifənin öhdəsindən uğurla gəlməsinə imkan verir. Bununla yanaşı, növbəti ilin dövlət büdcəsi sosial yönümlülüyünü saxlamaqla digər sahələrin də inkişafına lazımi şərait yaradır.

Sənəddə nəzərdə tutulan xərc istiqamətlərindən biri də tikinti və şəhərsalma sahəsidir. 2025-ci ilin dövlət büdcəsində bu istiqamətdə 6,7 milyard manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Bu vəsaitlərin daha rasional istifadəsi çox vacibdir.

Hökumət üzvlərinin burada iştirak etdiyini nəzərə alaraq millət vəkili seçildiyim 58 saylı Xaçmaz kənd seçki dairəsindən bəzi həlli vacib olan problemləri diqqətinizə çatdırmaq istəyirəm. Belə ki, rayonda, əsasən, kəndlərarası yolların nəqliyyat üçün yararsız olması, bəzi yolların isə, ümumiyyətlə, örtüklü olmaması ilə bağlı məsələlər seçicilərlə görüşlərdə daim səsləndirilir. Yol infrastrukturunun bərbad olması avtomobillərin və əhalinin hərəkətində problemlər yaradır, hərəkəti iflic edir, vaxt itkisinə səbəb olur, iqtisadi inkişafı ləngidir. Buna görə də göstərilən

ərazidə yol infrastrukturunun planlı şəkildə təmiri və bərpası ilə bağlı əsaslı işlərin görülməsinə ehtiyac vardır.

Seçicilərlə görüşlərdə səsləndirilən problemli yollar, əsasən, Çaykənarı, Qıraqlı, Şərifoba, Maqsudkənd, Bostançı, Uzunoba, Həsənqala, Əhmədoba kəndləri, Pirquluoba – Hacıməmmədoba yolu, həmçinin Yeni Həyat (3 km) və Şimali (2 km) qəsəbələri ərazisinə düşür.

Qeyd etmək istəyirəm ki, son illərdə rayonumuzda məktəblərin əsaslı təmiri və tikintisi uğurla icra olunub və keyfiyyətli təhsil üçün vacib olan belə addımların atılması sevindiricidir. Fürsətdən istifadə edərək görülmüş işlərə görə öz adımdan və seçicilərim adından cənab Prezidentə bir daha minnətdarlığımızı bildirirəm. Lakin bununla yanaşı, Mürşüdoba, Ağtala, Manafoba, Ləcət, Yalama, Susayqışlaq, Çaykənarı, Maqsudkənd və digər kənd məktəblərinin təmirə ciddi ehtiyacı var.

Seçicilərlə görüşdə tez-tez qaldırılan digər problem isə məktəbəqədər təhsil müəssisələrinin yetərincə olmaması ilə bağlıdır. Məsələn, Susayqışlaq, Köhnə Xudat kənd, Nabran, Bostançı kimi kəndlərdə uşaq evi-bağçalara ciddi tələbat var. Hökumətdən rayonumuzda bu sahəyə xüsusi diqqət ayrılmasını xahiş edirik.

Bundan əlavə, bildirmək istəyirəm ki, Xudat şəhərində yerləşən Xaçmaz Uşaq və Gənclər İnkişaf Mərkəzinin əsaslı təmirə ehtiyacı vardır. Belə ki, mərkəzin Xudat bölməsinin binası 1958-ci ildə tikilib və Gənclər İnkişaf Mərkəzi kimi isə 50 ildir fəaliyyət göstərir. Bu müəssisədə 9 müəllim bir tədris ili ərzində 200-ə yaxın şagirdlə 11 növ müxtəlif dərnəklərdə fəaliyyət göstərir. Düşünürəm, binanın əsaslı təmir olunaraq daha şəraitli hala gəlməsi şagirdlərdə daha böyük nailiyyət və bacarıqlara yiyələn-

mək üçün stimul olacaq.

Əminik ki, ölkəmizin artan iqtisadi gücü vacib olan məsələlərin tezliklə həll olunmasına imkan yaradacaq. 2025-ci ilin dövlət büdcəsinin artım göstəriciləri dövlətimizin uğurlu inkişaf templərini saxlamaqla növbəti uğurlarımızın əsasını qoyur. Qanun layihəsini dəstəkləyirəm və Nazirlər Kabinetinə dövlət büdcəsinin icrasında uğurlar arzulayıram.

# MÜNDƏRİCAT

3 dekabr 2024-cü il ............................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................. 82

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

13-cü cild

3 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 7. Tiraj 150.